## O gəlsin yenə...

**Bir an elə bildim o gəldi yenə,**

**Gözlərim yaşardı,yaş doldu yenə,**

**Təki o gələydi,görərdim deyə.**

**Bir an bütün ömrü verərdim yenə.**

**Desə ki gəlirəm,ömrü ver indi**

**Heç nə düşünmədən verərdim ömrü.**

**Bilərdim sonuncu nəfəsimdə o**

**Yanımda olanda verdim o ömrü.**

## Sevgini daddım

**Səni sevmək necə olur mən daddım,**

**Sevincini,kədərini mən daddım**

**Baxışını,gülüşünü mən daddım**

**Bir də çəkib gedişini mən daddım.**

**Mənlə olan sevincini mən daddım,**

**Məndən ayrı sevincini mən daddım.**

**Sənlə keçən o günləri mən daddım,**

**Sənsiz keçən o günləri mən daddım.**

## Səndən doymadım

**Hər gün xəyalınla yatıb-oyanan,**

**Görəsən Allahın bəndəsi vardır?**

**Sənin xəyalınla yatıb-oyanan**

**Allahın bir tək mən bəndəsi vardır.**

O bəndə səni xoşbəxt istərdi,
Uzaqdan xoşbəxt etmək olur mu?
Uzaqda xoşbəxt olmasaq belə
Yaxında olanda xoşbəxt olurduq.

Hər səhər oyanıb yanına gəlib,
Qoynunda bir damla yuxu görərdim.
Yuxusuz qaldığım saatlar isə
Səni izləməkdən doymaq istərdim.

Səni izləməkdən heç doymadım ki,
Qoxunu çəkməkdən heç doymadım ki,
Sən yatarkən səni gizlincə öpüb
Oyandırıb getməkdən heç doymadım ki.

## Ürək deyil mi?

Gözlərin gözümə baxdığı zaman,
Sinəmdə döyünən ürək deyil mi?
Səndəki günəvi sarsıdan zaman,
Sinəmdə qırılan ürək deyil mi?

## Sevə bilməzsən

İndi sevmədiyin yanında olsa,
Çıxıb getmək istər,gedə bilməzsən.
Bilirsən o səni sevir,halbuki
Sevmək istəsən də sevə bilməzsən.

Sevmək istəməsən də,sevir o səni,

**Görmək istəməsən də,görürsən onu.**
**Axı həyatının qanunu budur**
**Ölmək istəsən də ölə bilməzsən.**

## Sevmədim

**Səni sevdiyim kimi heç kimi sevmədim,**
**Sənə baxdığım kimi heç kimə baxmadım,**
**Sənə toxunduğum kimi heç kimə dəymədim,**
**Səndən başqa heç kimi ömürlük sevmədim.**

## Sənsizəm mən yenə

**Ömürlük sevgi mi olur?-deyirlər,**
**Yaşamayan bilməz ki,necə olur o?**
**Yaşayan əlbət ki dadına varıb,**
**Onun əzabını hər gün yaşayıb.**

**Gecəm də sənsən,gündüzüm də sən,**
**Hər gün yuxularımda,xəyalımdasan**
**Hər gün məni sənsiz oyadan Rəbbim**
**Bir gün məni sənlə oyadacaq mı?**

**Gedirəm,sənsiz küçələrdəyəm**
**Gedirəm,amma ki çata bilmirəm.**
**Ölürəm,amma ki ölə bilmirəm,**
**Sənlə keçən günlərimi ata bilmirəm.**

**Gedirəm,sənsizəm mən yenə,**
**Sevirəm,sənsizəm mən yenə.**

**Baxıram o yollar sənsizdi yenə**

**Ölürəm,sənsizəm mən yenə.**

## Utansın

**Sevirəm deyib də yanımda olan**

**Sevməyən ürəyin məndən utansın.**

**Bir kəlmə sözümü qəribə salan**

**Döyünən ürəyin məndən utansın.**

**08.11.17**

## ****

**“Amma”ya, “kaşki”yə,**

**Nifrət edirəm bu kəlməyə.**

**Gözümüzdən düşürməyə,**

**Hər an birini tapa bilər,**

**Həyatımdan ata bilər.**

**08.11.17**

## Sevməkmidir günahım?

**Səni sevməkmidir günahım mənim?**

**Niyə sevmişdim ki axı mən səni?**

**Belə ayrı-ayrı həsrətli günlər,**

**Belə bədbin günlər keçsin deyə mi?**

**Səni sevmişdim ki,hər zaman sevim,**

**Səni öpmüşdüm ki,hər zaman öpüm,**

**Səni tanıdım ki,həyat yolumda**

**Bütün ömrüm boyu səninlə olum.**

********

**Evliyəm artıq sevgilim,**
**Evliliyin dadını dadanlar bilər,**
**Sən ki,evliliyi hardan biləsən?**
**Axı sən mənimlə evli deyilsən.**

**15.12.17**

********

**Sevgidir mi,həyatımın mənası,**
**Xeyr,sevgi deyil, “sənsən” mənası.**
**Sevgi hər şey demək deyil,sevgilim,**
**Çünki hər şey sən deməkdir,sevgilim.**

**15.12.17**

********

**Niyə yaralarım incidir məni?**
**Niyə acılarım yandırır məni?**
**Niyə mənim ömrüm yarasız keçmir?**
**Niyə sevgilim də aldadır məni?**

**15.12.17**

## Balaca mələk

**Sevgilim əlimi əlinə alsan,**
**Desən ki,bu əlin artıq mənimdir.**

**Desəm ki,axı sən nə istəyirsən?**
**Desən ki,sevgilim sonsuzumsan sən.**

**Əllərim əlində olduqdan sonra,**
**Gözlərim gözlərinə baxdıqdan sonra,**
**O balaca mələyi Tanrımız bizə**
**Hədiyyə edecək göylərdən yerə.**

**15.12.17**

## Deyir ki...

**Deyirəm sevgilim gəl apar məni,**
**Deyir ki,heyif ki gələ bilmirəm.**
**Deyirəm nolar ki,axı sənsizəm,**
**Deyir ki,olmaz ki,çünki evlisən.**

**15.12.17**

## Gözlərim

**Hər gecə gözlərimdə yaşlar dolanır,**
**Hər gecə gözlərimdə qürub hərlənir.**
**Gözlərim necə də mənasız baxır**
**Hər gün gözlərimdən sənsizlik axır.**

**19.12.17**

## Sənsizlik ömrümü sildi apardı

**Sevdiyim yenə də uzağımdasan,**
**Axı,bu ayrılıq bizə mi qaldı?**
**Niyə ki bizdə başqalarıtək,**
**Sevib də qovuşub,bir yaşamırıq?**

**Sevdiyim ümidim üzülmədi,bax,**
**Sənsiz keçən günlərdə yenə də varam.**
**Sən mənim fikrimdə,xəyalımdasan,**
**Çünki gələcəyə ümidlərim var...**

**Sənsiz keçən günlərimi yellər aparsın,**
**Sənsiz keçən aylarımı yellər aparsın.**
**Bir də qapımızı açanda baxım**
**Sevdiyim o adam yanıma gəlir.**

**Həmin anımdaki sevincim ki var,**
**Sənsiz keçən günlərimi silib aparar.**
**O gözəl günlərimiz yenidən doğar,**
**Sənsiz keçən ömrüm də səninlə solar.**

**04.01.18**
**11:07**

## Ölümdən savab!

**Ah məni bu günə məhkum edənin,**
**Məhkum olsun özü bugünki günə.**
**Niyə axı mən bu günü çəkməliyəm ki?**
**Axı məntək insanın çox mu günahı?**

**Allah Allah deyib sığındım sənə,**
**Nə olar sən də bir cavab ver mənə.**
**Ürəyim sıxılır,dözə bilmirəm**
**Axı məntək insanın çox mu günahı?**

**İnsanlıq öldüsə,məni də öldür**

**Çətin bu əzabla yaşayaram mən.**
**Amma yox,biriçün yaşamaq olar,**
**Çünki o mənimçün ölümdən savab.**

**07.01.18**

**12:08**

## Son ümid

**Bəziləri elə "sevirəm" deyir,**
**Deyirəm,ay aman mən ki sevmədim.**
**Sanki birdən-birə yanılmış kimi**
**Sevgini elə də dadmamış kimi.**

**Dünyada ən gözəl sevmək,**
**Sevgini kimsəylə bölüşməməkdir.**
**Çünki o səninçün özəldən özəl,**
**Çünki o səninçün hər şeydən gözəl.**

**Kirpik arasındakı məsafəyədək,**
**Sol yanağındakı xalına qədər,**
**Hələ alt dodaqdakı o ləkəyədək,**
**Heç kimsə kimisə sevə bilməyəcək.**

**Mən ki heç pis sevməmişdim,İlahi,**
**Biz ki heç vaxt "biz" olmadıq,İlahi,**
**Sən ki göydən baxırdın axı,İlahi,**
**Ümidimiz ölənədək səninlədir,İlahi.**

**08.01.18**

**00:40**

## Səssiz qadın

**Səssizcə şeir yazan bir qadın,**
**Səssizcə yox olur,gedir dünyadan.**
**Əslində o ölmür,o daim sağdır,**
**Çünki o səssizcə ölən qadındır.**

**Qadının səssiz olma səbəbi,**
**Onun həyatının əziyyətidir.**
**Qadının səssiz ölmə səbəbi,**
**Yenə də həyatın əziyyətidir.**

**19.12.17**
**20:43**

## Nə üçün varam?

**Sən yoxsan,**
**Mən nə üçün varam?**
**Buludlara yağış olmaq üçün mü?**
**Qəlbimdə yaralar açmaq üçün mü?**
**Yoxsa sənin yanına gəlmək üçün mü?**

**19.12.17**
**20:52**

## Canlı ölü

**Ya yaşayıram,ya da ölmüşəm,**
**Əgər yaşayıramsa mən,**
**İnan yaşadığım fərqimdə deyil.**
**Sanki "canlı ölütək" yaşayıram mən.**

**11.01.18**
**11:11**

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ ADU

**Niyə insanları tanımaq olmur?**

**Gəlib də birini çox istəyirsən,**
**Qəlbini çıxarıb ona verirsən.**
**Elə bax ordaca səhv eyləyirsən,**
**O şərəfsizə adam deyirsən.**

**Şərəfsiz dediyim tək kişi deyil,**
**Ən böyük şərəfsiz qadın özüdür.**
**Qadını qaldırıb başa qoymaqdan**
**Qadınlar özlərin çöllərə qoyur.**

**Sözlərim hər kəsə ithaf deyildir,**
**Namuslu qadına söz ola bilməz.**
**O qadın ki onun əlindən öpüb,**
**Alnıma qoyaram,of da dəmərəm.**

**Axı bu dünyamız niyə belədir?**
**Niyə insanları tanımaq olmur?**
**Niyə insanlarda yaxşılıq qalmır?**
**Niyə insanların çoxu pis olur?**

**11.01.18**
**15:49**

**Darıxmışam,anam.**

**Anam!**
**Bir dəfə deyirəm,beş eşidirəm,**
**O ağrıyan canına qurban mən olum.**
**Anam dəyərini indi bilirəm,**
**Çünki səndən çox uzaqdayam mən.**

**Elə danışdım ki sanki ölmüşəm**
**Canım anam səninçün çox darıxmışam.**
**İndi uzanardım dizində sənin**
**Deyərdin can bala haran ağrıyır?**

**Başımı qoyduğum dizinə qurban,**
**Sənin gözlərinə,qaşına qurban.**
**Can bala dediyin dilinə qurban**
**Anam darıxmışam axı səninçün.**

**Anam neynəyirsən indi görəsən?**
**Atama xörək mi verirsən görən?**
**Xörək çəkən əllərinə qurban mən olum,**
**Qızım deyən dillərinə qurban mən olum.**

**11.01.18**
**15:59**

**Körpə balam**

**Körpəmi bətnimdə ilk bildiyim an**
**Gözümdən tökülən yaşa dəymədim.**
**Ürəyinin səsini eşidən zaman,**
**Gözümdən tökülən yaşa dəymədim.**

**Mənim kimi anası olacaq körpə,**
**Kaşki anasız bir körpə olsa.**
**Mənim kimi sevəcək anası olsa,**
**Kaşki o, ana onun nəsibi olsa.**

**Hər dəfə əlimlə toxunan zaman,**
**Sanki məni duyur,mənlə danışır.**

**Hər dəfə sakitcə ağlayan zaman,**
**Sanki məni duyur,mənlə ağlayır.**

**Ah balaca körpəm nəydi günahın?**
**Mənimtək ananın qisməti oldun.**
**Sənin həsrətinlə yaşayan çoxdu**
**Axı mən mi,layiqəm ana olmağa?**

**31.03.18**
**13:00**

**Qaranlıq**

**Mən bu halıma necə dözüm ki?**
**Mən bu dərdlərimi necə çəkim ki?**
**Mən bətnimdəki körpə balama,**
**Analıq hissimi necə deyim ki?**

**Sevgi də,hörmət də gəlib keçəndir,**
**İnsan gərək özünün qədrini bilə.**
**Mənimtək bir insan qədir bilmirsə,**
**Mənim yerim daim o qaranlıqdır.**

**Qədrimi bilsəm də,bilməsəm də mən,**
**Onsuz mənim sonum o qaranlıqdır.**
**Sənin gəlişinlə dünyaya məni,**
**Bağlayan bir tək "bağ"-o var olmuşdur.**

**31.03.18**
**12:45**

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ ADU АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

**Səsindəki hüzur**

**Sənsiz keçən günlərimi tək mən bilirəm,**
**Sənsizliyin hissini tək mən duyuram.**
**Sənsiz yaşamaq da haramdır mənə,**
**Nə olar məni də apar yanına.**

**Nə olar bir dəfə səsini duysam,**
**Hıcqırıqlarımın əngəli olsan,**
**Nə olar bir dəfə səsini duysam,**
**Bəlkə səsindəki hüzura öləm...**

**19.01.18**
**21:34**

**Nə edim?**

**Bilmirəm,nə edim,necə düşünüm?**
**Düşüncəmi kiməsə necə nəql edim?**
**Düşünmək doğru mu?Hələ bilmirəm,**
**“Yaşamaq” hər şeydən çətin,bilirəm.**

**Bir də ki, “yaşamaq” dedim az öncə,**
**Hətta ikitərəfli bir dırnaq içində,**
**Belə yaşamağa “hə” mi deyim mən?**
**Dırnaq içərisində yazılan “hə”sə**
**Yaşamağa niyə ki, “hə” deyirəm mən?**

**Məgər “yox” demək cəsarəti, var mı ki məndə?**
**“Yox” desəm hər şeyim düzələcək mi?**
**Yoxsa ki,bu söz də o sözlər kimi,**
**Mənasız deyilən bir kəlimədir?**

**Nədənsə bu aralar mənası yoxdur**

**Yaşamağın,deməyin,gülməyin.**
**Özümü mənasız hiss edirəm mən**
**Laqeyd yaşayan bir insan təki.**

**16.02.18**
**19:54**

**Daha da artığı...**

**Onun etdikləri doğru mu indi?**
**Mənə etdiyini mən bilə-bilə**
**Daha da artığın istəyir məndən**
**Mən daha artığın niyə də edim?**

**Mən belə deyirəm , o belə deyir**
**Məni hər kəlməyə özü sövq edir.**
**Sonra da deyir ki,niyə edirsən?**
**Daha da artığın istəyir məndən.**

**Gözlərimin içinə dik baxa-baxa**
**Normal yaşamamı necə istəyir?**
**Mənə o zərbələri vurandan sonra,**
**Daha da artığın necə istəyir?**

**16.02.18**
**20:18**

**Həyat var deyim**

**Şeir yazmaqla da tükəndi qələm,**
**Heç kim bilməsə də kağızlar bilər.**
**Məni içdən- içə öldürən şeyi**
**Məni həyatımdan bezdirən şeyi.**

**Kaş ki bu dünyaya gəlməzdim mən heç,**
**Gəlmişəm, səbəbsiz getməzdim mən heç,**

**Səbəbim var , al məntək aciz qulunu**
**Ordakı qərarı sən özün seç ver.**

**Hamı elə bilir inamsızam mən**
**Bəlkə də bunu mən özüm demişəm.**
**Sənin varlığın qəlbimdə sanki**
**Çiçək cücərtisitək  hiss edirəm mən.**

**Səndən tək diləyim kömək et mənə,**
**Mənidə birazcıq xoşbəxt etsənə,**
**Nə olar ki mən də başqalarıtək**
**Balaca xoşbəxtlik atım qəlbimə.**
**Seviniç, sevinim,çoxluca gülüm,**
**Ey tanrım, nə gözəl həyat var deyim.**

**15.06.18**
**10:41**

## Səssiz yazar

**Səssicə şeirlər yazan bir qadın,**
**Əlbətki səssizliyin səbəbi vardır.**
**Bədbin düşüncəylə şeirlər yazır,**
**İnan ki, səbəbi çoxdan da çoxdur,**
**Nədir bu misranın bədbin oluşu?**
**Əbədi səssizlik mi yatır misrada?**
**Bilir içindəki ağrı, acını,**
**Axmaq təbəssümlə öldürür qızı,**
**Yaralı bir quştək qarşıda durub,**
**Rəbbindən bir damla yardım istəyir,**
**Allahın qanadı yaralı quşu,**
**Mərd olmuş Tanrıdan yardım istəyir.**
**Orada oturan yaralı quşu,**

**Vaxt gələr nə yara, nə izi qalar.**

**Allahım o, quşu ölümlə sınar.**